# Ukraynanın İrpen şəhərində görkəmli elm xadimi, akademik Zərifə Əliyeva adına istirahət parkında beynəlxalq rəsm sərgisi



Azərbaycanın Ukraynadakı səfirliyinin və İrpen Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə görkəmli elm xadimi, akademik Zərifə Əliyeva adına istirahət parkında beynəlxalq rəsm sərgisi keçirilib. Sərgidə 10 ölkədən 30-dan çox rəssamın müxtəlif səpkili rəsm əsərləri nümayiş olunub. Sərgi başlanmazdan öncə Azərbaycanın Ukraynadakı səfirliyinin diplomatları, İrpen şəhər meriyasının nümayəndələri və diaspor fəalları akademik Zərifə Əliyevanın abidəsinin önünə tər çiçəklər qoymaqla, görkəmli elm xadiminin xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

Qeyd olunub ki, mütəmadi olaraq müxtəlif mədəni tədbirlərin keçirildiyi istirahət parkında, bu dəfə Azərbaycan, Ukrayna, Belarus, Moldova, Litva, Polşa, Macarıstan və bir sıra ölkələrin tanınmış rəssamlarının rəsm sərgisi təşkil olunub. Sərgi iştirakçılarına uğurlar arzulayan İrpen şəhər merinin müavini Yelena Çerniyovskaya bildirib ki, akademik Zərifə Əliyeva adına parkda beynəlxalq rəsm sərgisinin təşkil olunması ilə bu istirahət guşəsində növbəti bir mədəni tədbirin bünövrəsi qoyulub.

Müxtəlif ölkələrdən tanınmış rəssamların sərgiyə qatılmasını yüksək dəyərləndirən xanım Çerniyovskaya, hər il oktyabrın ikinci on günlüyündə Zərifə Əliyeva adına parkda beynəlxalq rəsm sərgisinin təşkil olunacağını bildirib. Sərginin Ukrayna, Belarus, Litva, Azərbaycan və bir sıra ölkələrin tanınmış rəssamları arasında qardaşlıq və dostluq körpüsünə çevrildiyini vurğulayan Ukraynanın Əməkdar rəssamı Konstantin Moqilyevski sərgidə iştirak edən rəssamların yaradıcılıq duyğuları ilə Zərifə Əliyeva adına parkın gözəlliyi arasında bir vəhdət yarandığını diqqətə çatdırıb. İrpen şəhər ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan sərgidə ölkəmizi rəngarəng əsərlərilə Əsgər Cavadov təmsil edib. Onu da qeyd edək ki, Ukraynanın tanınmış kurort bölgəsi olan İrpen şəhərində akademik Zərifə Əliyeva adına istirahət parkı ilə yanaşı, küçə və orta məktəb də fəaliyyət göstərir.

**Mohsüm QƏDİROĞLU,**
**Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa bürosunun rəhbəri.**

